# RESPUBLİKADA KEÇİRİLƏN KÜTLƏVİ İDMAN TƏDBİRLƏRİNƏ BEYNƏLXALQ SFERADAN BAXIŞ VƏ TƏHLİLİ

prof., Yusif Babanlı, İlkin Həsənov
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının
ilkinhesenov@mail.ru

**Xülasə:** Məqalədə ölkəmizdə keçirilən kütləvi idman tədbirlərinin beynəlxalq sferada özünə necə yer tutduğundan bəhs olunur. Beynəlxalq müsabiqələr zamanı əldə olunmuş uğurların dövlətin nüfuzunu artırması, nailiyyətlərini inkişaf etdirməsi və dünya ictimaiyyətinin gözündə ölkənin imicini yaxşılaşdırması barədə məlumatlar məqalədə öz əksini tapmışdır. Məqalədə Azərbaycanın idman ölkəsi kimi dünyada böyük nüfuz qazanması və idmana dövlətin qayğısı geniş şəkildə verilmişdir.

**Açar sözlər:** kütləvi idman tədbirləri, yarışlar, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula I.

# ОБЗОР И АНАЛИЗ МЕЖДУНАРОДНЫХ СПОРТИВНЫХ МЕРОПРИЯТИЙ, ПРОВОДИМЫХ В РЕСПУБЛИКЕ

проф. Ю. Бабанлы, И. Гасанов

**Аннотация:** В статье рассматриваются массовые спортивные мероприятия, проводимые в нашей стране на международной арене. В статье отражены успехи международных конкурсов по улучшению имиджа государства, развитию его достижений и улучшению имиджа страны в глазах мирового сообщества. В статье уделяется большое внимание государству, как спортивной стране Азербайджана и заботе государства оспорте.

**Ключевые слова:** массовые спортивныесоревнования, конкурсы, студенты, Европейские игры, игры Исламской солидарности, Формула I.

# REVIEW AND ANALYSIS OF THE INTERNATIONAL MASS MEDIA ON MASS SPORTS EVENTS

**prof.** Y. Babanli, I. Hasanov

**Summary:** The article mentions the role of mass sports in our country and in the international arena. The article reflects the success of international competitions aimed at improving the state's reputation, of the state improving its achievements, and improving information about the world community. The article gives a great deal of attention to the state as a sporting country and the care of the state about sports.

**Key words:** mass sports competitions, competitions, European Games, Islamic Solidarity Games, Formula I.

Hal-hazırda kütləvi idman tədbirləri anlayışı ölkəmizdə geniş yayılmışdır. Kütləvi idman tədbirləri ölkənin mədəni, sosial və siyasi həyatında xüsusi yer tutur. Kütləvi idman tədbirləri zamanı ölkənin qapıları bütün turistlərin üzünə açıq olur. Bu tədbirlər bir fikir, məqsəd, duyğu uğurunda insanları birləşdirən böyük bir dəyərdir.

Son zamanlar tez-tez idman və böyük siyasət arasında əlaqələr haqqında beynəlxalq mətbuatda geniş məqalələr dərc olunur. Eləcə də dünya siyasi proseslərində beynəlxalq idman təşkilatlarının rolunun güclənməsninin şahidi oluruq. İlk növbədə idmanın müxtəlif qrupların mənafelərinə təsir edən hərtərəfli bir fenomen olduğunu söyləmək lazımdır. İdman həmçinin ölkənin beynəlxalq imicinin və səlahiyyətinin fornmalaşmasının mühüm tərkib hissəsidir. Beynəlxalq müsabiqələr zamanı əldə olunmuş uğurlar və idman tədbirlərinin təşkilində əldə olunmuş uğurlar dövlətin nüfuzunu artırır, nailiyyətlərini inkişaf etdirir və dünya ictimaiyyətinin gözündə ölkənin imicini yaxşılaşdırır.

Təəccüblü deyil ki, bu gün bir çox qabaqcıl ölkələr öz ərazilərində beynəlxalq kütləvi idman tədbirlərini keçirmək üçün yarışırlar.

Dövləti beynəlxalq aləmdə gücləndirmək üçün lazım olan altı elementi müəyyən edilmişdir: turizm, insanlar, ixrac brendləri, mədəniyyət və irs, investisiyalar, daxili və xarici siyasət. Bu elementlər demək olar ki, idmanda tamami ilə öz əksini tapmışdır. Böyük beynəlxalq kütləvi idman tədbirlərini keçirməklə bu elementlərin hər biri həyata keçirmək mümkündür. Bir ölkənin böyük bir dünya tədbirinə ev sahibliyi etməsi, turizmin inkişafına, ölkəyə investisiyaların və mütəxəssisləri cəlb edilməsinə, ölkənin mədəniyyət ənənələrini nümayiş etdirilməsinə şərait yaradır, iqtisadi və siyasi sistemlərinə müsbət təsir göstərir.[2]

Günümüzdə dünyada idman beynəlxalq əlaqələrin ayrılmaz bir parçası halına gəlmişdir. Bu bir neçə beynəlxalq sənədlərə sübut olunur. Məsələn UNESCO-nun Fəaliyyət Planında idman qanunun öz əksini tapması, BMT-nin İnsan Hüquqları Şurasının "İdman vasitəsilə insan hüquqlarının inkişafı və Olimpiya Hərəkatının idealları" adlı qətnaməsi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının "Təhlükəsizliyin formalaşmasında idmanın mühüm rolu" aktı buna nümünədir.[3]

Ölkəmiz təkcə enerji resurslarının zənginliyi ilə deyil, həm də yüksək səviyyədə ev sahibliyi etdiyi mötəbər idman yarışları və digər beynəlxalq tədbirlərlə dünyanın diqqətini cəlb edir. Artıq dünyada Azərbaycan idman ölkəsi olaraq tanınır. Bunun başlıca səbəbi ölkəmizdə keçirilən beynəlxalq kütləvi idman tədbirləri və idmançılarımızın beynəlxalq idman arenalarında qazandığı qələbələrdir. Hər il ölkəmizdə keçirilən müxtəlif beynəlxalq idman tədbirləri dünyanın müxtəlif ölkələrində insanların diqqətinin Azərbaycana yönəlməsini məcbur edir.Tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi bir anın içində bütün Avropanın və bütün dünyanın diqqətini Azərbaycana çevirdi. I Avropa Oyunlarının Azərbaycanda çox yüksək səviyyədə təşkil edilməsi və keçirilməsi ölkəmizin necə inkişaf etdiyini bir daha dünyaya sübut etdi. Qeyd etmək lazımdır ki, I Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində təşkil olunmuşdur. Ölkəmizdə 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları isə bütün İslam ölkələrinin və dünyanın diqqətini bir daha Azərbaycana cəlb etdi. Dünyada gedən gərgin proseslərin fonunda Azərbaycan belə bir böyük idman bayramına ev sahibliyi edərək öz gücünü bir daha dünyaya göstərdi. Azərbaycan o azsaylı dövlətlərdəndir ki, həm Avropa təşkilatlarının, həm də islami strukturların üzvüdür. Respublikamız İslam Əməkdaşlıq Təşkilatının, İSESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir. Azərbaycan, həmçinin bununla bütün dünyaya İslam ölkələrinin həmrəyliyi, inkişafı ilə bağlı nümunə təqdim edir. 12-22 may tarixlərində baş tutan IV İslam Həmrəyliyi Oyunları ölkəmizin bu həmrəylin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratdı. İslam Həmrəyliyi Oyunları birlik, qardaşlıq və dostluq oyunları oldu. Bu yarışlar sülhün, əmin-amanlığın, həmrəyliyin möhkəmlənməsi üçün dünyaya bir çağırış idi. Yarışın əsas şüarı da "Gücümüz

həmrəylikdədir" seçilmişdir. Bunlardan başqa artıq ölkəmizdə bir neçə ildir ki, "Formula-1" yarışları keçirilir. Bakıda 2016-ci ildə keçirilən "Formula-1" yarışı ümumi rəyə görə 20 yarışın arasında ilin ən yaxşı yarışı hesab olunub. Yəni, bu da ölkəmizin böyük nailiyyətidir, böyük uğurudur. Bir çox "Formula-1" yarışlarından fərqli olaraq ölkəmizdə keçirilən yarış şəhər yarışıdır və bu, eyni zamanda, bütün dünyaya - yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə "Formula-1" yarışı deyil, Azərbaycanda gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir otellər, viza rejiminin sadələşdirilməsidir. Eyni zamanda, "Formula-1" ölkəmizin təbliğatı üçün nadir bir yarışdır. Yəni, beş yüz milyon tamaşaçı bu yarışı müntəzəm olaraq izləyir, Bakının gözəlliyini, Azərbaycanın qüdrətini görür.[4]

Beləliklə, təkcə sadalanan bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir. Azərbaycanın son illərdə beynəlxalq sferada idman ölkəsi kimi tanınması Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bu sahədə apardığı əzmkar siyasətin nəticəsindədir. İlham Əliyev Milli Olimpiya Komitəsinin 1997-ci ildə prezidenti seçilməsindən sonra Azərbaycanda olimpiya hərakatı sözün əsl mənasında başladı. Artıq Azərbaycanın rayonlarının böyük əksəriyyətində Olimpiya Kompleksləri tikilib, Olimpiya Kompleksləri olmayan rayonlarda isə komplekslər ya tikilməkdədir ya da gələcəkdə tikiləcəkdir. Bütün görülən bu işlərin nəticəsidir ki, beynəlxalq aləm Azərbaycanı idman ölkəsi kimi tanıyır.

## Ədəbiyyat siyahısı

1. Babanlı Y.M.,Quliyev D.Q. İlham Əliyev və Azərtbaycan gəncliyi. "Təknur" nəşriyyatı, Bakı, 2013, 328 səh.
2. Journal of Physical Activity and Health, 2007, 4, 193-202 © 2007 Human Kinetics, Inc.
3. Journal of Physical Education & Health, 2012, vol. 2 (3), 31-37
4. www.mys.gov.az